**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NATO-NUN STRATEJİ PROQRAMLARI VƏ SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ İŞTİRAKI (1991-2013-CÜ İLLƏR)

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Həmidə Etibar qızı Əhmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

tarix üzrə fəlsəfə doktoru
**Alpay Azər oğlu Əhmədov**

tarix üzrə fəlsəfə doktoru
**Ceyhun Mübariz oğlu Ələkbərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

__________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent

__________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

__________________ **İsmayıl Məhərrəm oğlu Musa**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlərdə gedən proseslərə təsir edən amillər sırasında beynəlxalq təşkilatların sülhyaratma fəaliyyəti xüsusi yer tutur. Beynəlxalq sülhməramlı fəaliyyətin mövcudluğu bir sıra proseslərin mənfi təsirlərinin geniş coğrafiyaya yayılmasının qarşısını alır.

1990-cı illərdən başlayaraq dünya siyasi sisteminin ciddi dəyişikliklərə məruz qalması nəticəsində lokal və regional münaqişələr dünyanın bir sıra regionlarını əhatə etməyə başladı. Həmin münaqişələr hərbi aspektləri ilə yanaşı, bəşər tarixində yeni milli-insani faciələrin və humanitar fəlakətlərin meydana çıxmasına səbəb oldu. Beynəlxalq səylərin birləşdirilməsi vasitəsilə sülhyaratma fəaliyyətinin gücləndirilməsi gündəmə gəlməyə başladı. NATO yaranarkən qlobal hərbi-siyasi sistem ikiqütblü reallıq şəklində idi. Onun yaranması, digər tərəfdən, Varşava blokunun yaranmasına səbəb oldu ki, bu təşkilat da sosializmin, ideoloji, hüquqi, siyasi, iqtisadi və mədəni dəyərlərinin qorunması və yayılması üçün hərbi güc rolunu ifa edirdi. Digər tərəfdə isə NATO ABŞ və Qərbi Avropa dövlətlərini özünün çətiri altında toplayaraq, həm özünün dəyərlər sistemini qoruyur, həm də kommunizm kabusunun dünyaya yayılmasının qarşısını alırdı. 1991-ci ildə SSRİ-nin süqutu ilə dünya yeni reallıqlarla üzləşdi. Birqütblü dünyanın yaranması nəticəsində beynəlxalq terror təşkilatları təsir dairələrini genişləndirdi.

Soyuq müharibə başa çatdıqdan sonra NATO beynəlxalq ictimaiyyətin geniş maraqlarına öz dəstəyini göstərərək digər təşkilatlarla sıx işləməyə başladı və dərin köklü problemləri həll etmək, çətinlikləri azaltmaq, sülhün uzunmüddətli olmasını təmin etməkdə bütün şəraitləri yaratmaq üçün özünü sülhqurucu və dəstəkləyici əməliyyatlara daha fəal cəlb etdi. NATO-nun sülhü dəstəkləyən ilk üç əməliyyatı Avropada-Bosniya və Herseqovinada, keçmiş Yuqoslaviya Respublikası Makedoniyada həyata keçirilmişdir.

Ortaq dəyərləri müdafiə etmək üçün NATO bu günün təhlükəsizlik problemləri üzərində diqqətini cəmləyə bilir.

Balkanlarda və Əfqanıstanda aparılan əməliyyatları, İraq və Darfurdakı tədbirləri, qeyri-NATO dövlətləri və digər təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıqlarının artan gücü onun davam edən səmərəliliyini nümayiş etdirir.

1991-ci il oktyabrın18-də beynəlxalq münasibətlər sisteminə daxil olan bir subyekt kimi, Azərbaycan Respublikası müstəqilliyə ilk addımlarını daxili problemlər və eləcə də Ermənistan təcavüzü ilə atdı. Azərbaycan belə bir şəraitdə siyasi dəstəyi yalnız Türkiyədən görürdü.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə siyasi təmərküzləşdirmə və ölkədə vəziyyətin mərkəzi hakimiyyət tərəfindən nəzarətə alınması siyasəti reallıqları dəyişməyə başladı. Belə bir şəraitdə Azərbaycanın inteqrasiya etməyə çalışdığı fəaliyyət istiqamətlərindən biri də NATO ilə əməkdaşlıq idi. Respublikamızın nüfuzlu beynəlxalq qurumlarla əlaqələrinin yaradılması 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" proqramının qəbulu ilə yeni mərhələyə qədəm qoydu. Həmin il may ayının 4-də Ümummilli Lider, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun Mənzil-qərargahına səfəri zamanı ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə yol açan "Sülh naminə tərəfdaşlıq" proqramının Çərçivə sənədini imzaladı. Bununla da, Azərbaycan NATO ilə genişmiqyaslı əməkdaşlığı nəzərdə tutan "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamış 15-ci dövlət oldu. Onu da qeyd edək ki, Azərbaycan MDB dövlətləri arasında NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk tərəfdaş dövlətlərdəndir. Azərbaycan-NATO tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli praktiki əməkdaşlıqdan ibarət olmuşdur. Fərdi əsaslarda qurulan tərəfdaşlıqla yanaşı, Azərbaycan Avro-Atlantika Tərəfdaşlıq Şurasının işində də fəal iştirak etmişdir. 1999-cu ilin sentyabrından etibarən, Azərbaycan Respublikasının sülhməramlı kontingenti Türkiyə taburu daxilində Kosovoda keçirilən sülhməramlı əməliyyatda iştirak etmişdir. Azərbaycan-NATO əməkdaşlığının getdikcə möhkəmlənməsi qarşılıqlı səfərlər çərçivəsində aparılan danışıqlarda da özünü büruzə vermişdir.

Beləliklə, onu demək olar ki, artıq ölkəmiz NATO ilə sıx əməkdaşlıq şəraitində müxtəlif strateji proqramlarda və sülhyaratma əməliyyatlarında iştirak edir. Gələcəkdə bu əməkdaşlığın davam etdirilməsinin milli maraqlarımıza uyğunlaşdırılmasında və Azərbaycan Respublikasının bu istiqamətdə fəaliyyətinin düzgün proqnozlaşdırılmasında elmi araşdırmaların böyük rolu vardır. Bu baxımdan dissertasiyada tədqiq edilən "NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarında Azərbaycan Respublikasının iştirakı (1991-2013-cü illər)" mövzusu aktualdır və bu aktuallığı aşağıdakı müddəalarla ifadə etmək olar:

- Ümummilli Lider Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət konsepsiyasında NATO ilə əməkdaşlığın və tərəfdaşlıq fəaliyyətinin qurulmasının tarixi əhəmiyyətinin öyrənilməsi, xarici siyasətin hərbi aspektlərinin araşdırılması elmi aktuallıq kəsb edir;
- 1991-2013-cü illər arasında NATO-nun Cənubi Qafqazla, xüsusilə Azərbaycanla bağlı siyasətinin öyrənilməsi tarixi və siyasi nöqteyi-nəzərdən aktuallıq daşıyır;
- Ölkəmizin NATO ilə münasibətlərinin Avro-Atlantika məkanına inteqrasiya prosesinə təsirinin öyrənilməsi elmi baxımdan maraq doğuran məsələlərdəndir;
- Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında və digər köməkçi proqramlarında fəaliyyətinin, həmçinin, sülhməramlı əməliyyatlarında iştirakının tarixi nəticələrinin öyrənilməsi aktualdır;
- Azərbaycan-Türkiyə əməkdaşlığının gücləndirilməsinə təsir edən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının və eləcə də sülhməramlı əməliyyatlarda birgə iştirakının tarixi nəticələrinin öyrənilməsi də aktuallıq kəsb edən məsələlər sırasına daxildir.

Problemin tarixşünaslıq bazasına nəzər yetirsək, bu mövzu elmi ədəbiyyatda geniş araşdırılsa da, onun bütün tərəf və istiqamətləri kompleks şəkildə tədqiq olunmamışdır.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra NATO ilə əməkdaşlığın prioritetlərini araşdırmaq üçün mühüm rol oynayan fundamental əsərlər nəşr edilmişdir ki, bunlardan ən önəmlisi Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" adlı

çoxcildlik əsəridir.[1] Burada Qərbin aparıcı dövlətləri, o cümlədən BMT, NATO kimi nəhəng təşkilatlarla əlaqələrin yaradılması və inkişafı məsələləri əks olunmuşdur.

Digər önəmli mənbələr sırasında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışları, nitqləri, müsahibələri, bəyanatları və müraciətlərindən ibarət olan "İnkişaf-məqsədimizdir" adlı çoxcildliyidir. 2008-ci ildən nəşrinə başlanan çoxcildlik 2003-cü ildə İlham Əliyevin Azərbaycan Respublikası prezidenti seçilməsindən sonrakı mərhələdə Azərbaycan-NATO əməkdaşlığının inkişaf dinamikasını araşdırıb işıqlandırmaq üçün mühüm mənbədir.[2]

Tədqiq edilən dövrün birinci mərhələsi ilə bağlı bir sıra önəmli məsələlər M.Qasımlının "Azərbaycan Respublikasının xarici siyasəti (1999-2003-cü illər)" kitabının II hissəsində öz əksini tapmışdır.[3] Əsərinin böyük bir bölümünü Azərbaycan-NATO münasibətlərinə həsr edən müəllif ilk öncə NATO-nun bir təşkilat kimi yeni dünya qaydasına inteqrasiyası ilə bağlı mühüm fikirlər irəli sürmüş, "Sülh naminə tərəfdaşlıq" proqramı və Azərbaycanın onda iştirakı haqqında geniş araşdırma etmişdir. Əsərdə, eyni zamanda, NATO tədbirlərində Azərbaycanın iştirakı məsələlərinə, Azərbaycanın İraq əməliyyatına dəvət edilməsinə də toxunulmuşdur.

Azərbaycan Respublikasının müstəqillik qazanmasından sonra beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı, Ermənistan - Azərbaycan münaqişəsinin nizamlanmasına dair beynəlxalq səylər,

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997. – 612 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə. Əliyev. -Bakı: Azərnəşr, -c.8. -1998. -488 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə. Əliyev. -Bakı: Azərnəşr, -c.10. -2002. -472 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 20. – 2007. – 536 s.

[2] Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [138 cilddə] / İ.H. Əliyev. -Bakı: Azərnəşr, -c.3. -2009. -416 s.; Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [138 cilddə] / İ.H. Əliyev. -Bakı: Azərnəşr, -c.4. -2009. -400 s.; Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [138 cilddə] / İ.H. Əliyev. -Bakı: Azərnəşr, -c.51. -2017. -400 s.; Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [138 cilddə] / İ.H. Əliyev. -Bakı: Azərnəşr, -c.64. -2018. -396 s.

[3] Qasımlı, M.C. Azərbaycan Respublikasının diplomatiya tarixi. Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003): [2 hissədə] / M.C.Qasımlı. – Bakı: Mütərcim, – c. 2. – 2015. – 664 s.

Azərbaycanın neft-qaz diplomatiyası və Qərb dövlətləri ilə münasibətləri kimi çoxşaxəli mövzular İ.Musanın əsərində geniş şəkildə şərh olunmuşdur.[4]

Müəlliflərdən A.Abbasbəyli və Ə.Həsənovun birgə müəllifi olduqları "Azərbaycan beynəlxalq və regional təşkilatlar sistemində" əsəri də mövzu ilə bağlı araşdırılmışdır.[5] Müəlliflər Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazandıqdan sonra beynəlxalq və regional təşkilatlara inteqrasiyasını və bu təşkilatlarla əlaqələri şərtləndirən amilləri təhlil edib mühüm fikir və mülahizələr bildirmişlər.

Müəlliflərdən E.Nəsirov antiterror koalisiyası çərçivəsində ABŞ-Azərbaycan əməkdaşlığını tədqiq etmişdir. ABŞ NATO-nun başlıca dövləti olduğu üçün onunla antiterror sahəsində əməkdaşlıq həm də bu təşkilat daxilində həyata keçirilir. Müəllif əsərində bəşəriyyətə meydan oxuyan beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikasının ABŞ-ı müdafiə etdiyini qeyd etmişdir.[6]

Azərbaycan-NATO münasibətlərinin bir sıra aspektləri, həmçinin Ə.Həsənovun əsərlərində araşdırılmışdır. Müəllifin "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti", "Azərbaycan geosiyasəti"[7] adlı monoqrafiyalarında Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və onların həyata keçirilmə mexanizmlərindən bəhs olunmuşdur. NATO ilə münasibətlərin perspektivləri ilə bağlı müəllif gələcəkdə Şimali Atlantika Alyansının Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin edilməsində, müasir mülki müdafiə sisteminin hazırlanmasında, böhranların sülh

---

[4] Musa, İ.M. Azərbaycanın xarici siyasəti [3 cilddə] / Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – c.3. – 2011. – 776 s.

[5] Аббасбейли, А.Н. Азербайджан в системе международных и региональных организаций / А. Н. Аббасбейли, А. М. Гасанов. – Баку: Азернешр, – 1999. – 256 с.

[6] Nəsirov, E.X. ABŞ–ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri / E.X.Nəsirov. – Bakı: Elm və təhsil, – 2010. – 392 s., s.305

[7] Həsənov, Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M.Həsənov. – Bakı, Azərbaycan nəşriyyatı, – 2005. – 631 s.; Həsənov Ə.M. Azərbaycan geosiyasəti / Ə.M.Həsənov. – Bakı: "Zərdabi LTD" MMC, – 2015. – 1056 s.

yolu ilə nizamlanmasında və s. məsələlərdə kömək edə biləcəyini qeyd etmişdir.[8]

NATO blokunun “Avropanın BMT-sinə” çevrilməsi, strateji kursunda yeniliklər, Şərqə doğru genişlənməsi, Cənubi Qafqaza yönəlik siyasəti, Azərbaycan-NATO əməkdaşlığı kimi məsələlər H.Hüseynovanın əsərində ayrıca altfəsildə [9] araşdırılmışdır. Monoqrafiyada Azərbaycan siyasətşünaslığında ilk olaraq elmi dövriyyəyə gətirilən qaynaqlar və arxiv materialları əsasında NATO-Azərbaycan əməkdaşlığının mövcud vəziyyəti araşdırılmış və perspektivlərinə dair fikirlər səsləndirilmişdir. Müəllif xüsusi olaraq qeyd edirdi ki, NATO təşkilatı perspektivdə kiçik xalqların taleyi məsələsini diqqətdə saxlamalı və onların hesabına Rusiyaya heç bir güzəştə yol verməməlidir ki, zaman bu öngörücülüyün həqiqət olduğunu göstərdi.[10]

Z.Əsgərov və Z.İbrahimovun birgə ərsəyə gətirdikləri kitabda müəlliflər NATO-nun fəaliyyətinin müxtəlif aspektlərinə toxunaraq elmi-akademik bazanın formalaşmasına önəmli töhfə vermişlər. Müəlliflər Azərbaycan-NATO əlaqələrinin intensiv xarakter almasını birbaşa olaraq Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlayırlar.[11]

Azərbaycanlı müəlliflərdən M.Haqverdiyev ümumavropa təhlükəsizliyinin soyuq müharibədən sonrakı dövrünün hadisə və proseslərini təhlil edərkən NATO blokunun rolunu obyektiv qiymətləndirərək yazırdı ki, Varşava Paktı buraxıldıqdan sonra NATO öz mövcudluğunu qoruyub saxladı. Həqiqi rəqabət olmadığından daha güclü görünsə də, onun yeni beynəlxalq

---

[8] Həsənov, Ə.M. Azərbaycan geosiyasəti / Ə.M.Həsənov. – Bakı: “Zərdabi LTD” MMC, – 2015. – 1056 s., s.152

[9] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.K.Hüseynova. – Bakı: Hərbi nəşr, – 1998. – 280 s., s.105-136

[10] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.K.Hüseynova. – Bakı: Hərbi nəşr, – 1998. – 280 s., s.134

[11] Əsgərov, Z.A., İbrahimov, Z.H. Şimali Atlantika Müqaviləsi Təşkilatı – NATO. / Z.A.Əsgərov, Z.H.İbrahimov – Bakı: Azərbaycan nəşriyyatı, – 2010. – 400 s., s.10

vəziyyətə uyğun olaraq siyasi islahatlar həyata keçirməsi zəruri idi.[12] Təsadüfi deyildi ki, məhz bundan sonra hərbi blokun genişlənməsi prosesində bir sıra yeni layihə və proqramlar meydana gəldi. Digər müəlliflərdən A.Əhmədov da kitabında NATO və onun transformasiyası ilə bağlı bu kimi məsələləri araşdırmışdır.[13]

Azərbaycanın beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyası, Avratlantik institutlara qoşulması və həmçinin, Azərbaycan-NATO əməkdaşlığına dair tədqiqat aparmış müəlliflər sırasında E.Əhmədov, [14] A.Əliyeva, [15] X.Hacıyeva, [16] A.Əzimli, [17] Z.Babayev,[18] R.Axundov,[19] X.İsgəndərov[20] və başqaları var.

Azərbaycan müəlliflərindən Azər Əzimli NATO ilə münasibətlərin 1991-2000-ci illər dövrünü tədqiq etmişdir. Müəllif ikitərəfli əməkdaşlığın tədqiqinə Avro-Atlantika məkanında baş verən hərbi-siyasi proseslər və təhlükəsizlik prizmasından yanaşmışdır.[21] Digər Azərbaycan müəlliflərindən Cəsur Sümərinlinin NATO ilə bağlı kitabı vardır ki, burada ilk öncə Azərbaycan və

---

[12] Haqverdiyev, M.B. Müasir dövrün ümumavropa təhlükəsizliyi və Azərbaycan / M.B.Haqverdiyev. – Bakı: Elm və təhsil, – 2011. – 232 s., s.39

[13] Əhmədov, A.A. NATO və ümumavropa təhlükəsizlik sistemi / H.N.Məmmədov. − Bakı: Mütərcim, − 2018. − 124 s.

[14] Əhmədov, E.İ. Azərbaycan Respublikasının Avroatlantik təhlükəsizlik və əmkdaşlıq institutları ilə münasibətləri: / siyasi elmlər üzrə elmlər doktoru dis. / − Bakı, 2015. − 261 s.

[15] Əliyeva, A.M. NATO–da hərbi–siyasi islahatlar və Azərbaycan Respublikası / A.M.Əliyeva. – Bakı: Yeni Poliqrafist MMC, – 2012. – 280 s.

[16] Hacıyeva, X.Z. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995): / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2001. − 168 s.

[17] Əzimli, A. Azərbaycan–NATO münasibətləri (1991–2000) / A.Əzimli. – Bakı: Adiloğlu, – 2001. – 226 s., s.66

[18] Babayev, Z.A. Müstəqillik qazanmış postsovet ölkələrinin NATO-ya inteqrasiyasının beynəlxalq-hüquqi problemləri: / hüquq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2009. − 166 s.

[19] Axundov, R.R. Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / − Bakı, 2014. − 188 s.

[20] İskəndərov, X.İ. Azərbaycan Respublikasının milli təhlükəsizliyi və NATO: / milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru dis. / − Bakı, 2021. − 167 s.

[21] Əzimli, A. Azərbaycan–NATO münasibətləri (1991–2000) / A.Əzimli. – Bakı: Adiloğlu, – 2001. – 226 s., s.66

NATO arasında əlaqələrin xronologiyası, daha sonra NATO təşkilatı, onun mahiyyəti, strukturu və hərbi aspektləri haqqında məlumat verilmişdir.[22] Fərqli cəhətlərdən biri də odur ki, burada ayrı-ayrı milli və əcnəbi ictimai-siyasi xadimlərin Azərbaycan-NATO münasibətləri ilə bağlı çıxışları və fikirləri yer almışdır.

Tədqiq edilən mövzunun ayrı-ayrı aspektləri xarici müəlliflər tərəfindən də işlənmişdir. Bu, əsas etibarilə birbaşa NATO təşkilatının strateji xətləri, ümumi proqramları ilə bağlıdır. Xarici müəlliflərdən Jair van der Lijn, Ivan Briskou, Margret Drent, Kees Homan, Frans-Paul van der Putten, Dick Zandenin kitabı,[23] Eirini Lemos-Maniatinin əsərləri də elmi dövriyyəyə cəlb edilmişdir.[24]

ABŞ politoloqu Z.Bjezinskinin "Böyük şahmat taxtası" əsəri XX əsrin sonu ərsəyə gəlsə də, bu günümüzdə də aktuallığını itirməmişdir. [25] Z.Bjezinski əsərində gələcək dünyanın siyasi xəritəsini göstərmiş, xüsusilə, Avrasiyanın geosiyasi vəziyyətini təhlil etmişdir. O, Azərbaycanı Cənubi Qafqazın region dövlətləri arasında tutduğu mövqeyə görə fərqləndirmiş və ölkəmizi Ukrayna, Cənubi Koreya, Türkiyə və İranla yanaşı, beş geosiyasi mərkəzdən biri hesab etmişdir.

Dissertasiyada MDB ölkələri müəlliflərinin əsərlərindən istifadə edilmişdir ki, bunlardan S.Çernyavski NATO-nun Cənubi Qafqazdakı maraqlarını araşdırmışdır.[26] V.Kudravseva NATO-nun dünya düzənindəki dəyişikliklərlə bağlı siyasi kursunun dəyişmələrinə toxunmuşdur.[27] Müasir rus tədqiqatçılarının əsərlərində NATO-nu Rusiyanın milli təhlükəsizliyi üçün potensial

[22] Sümərinli, C. İrəliyə, NATO–ya doğru! / C.Sümərinli. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 2007, – 138 s.

[23] Lijn J., Briscoe I., Drent M., Homan K., Putten F.P., Zandee D. Peacekeeping operations in a changing world // – Clingendael Strategic Monitor Project Publication: June 2014 Translation: January 2015, – 86 p.

[24] Maniati E.L. Peace–Keeping Operations: Requirements and effectiveness; NATO's role: [Electronic resource]. URL: https://www.nato.int/acad/fellow/99-01/lemos-maniati.pdf

[25] Бжезинский, З. Великая шахматная доска / З.Бжезинский. – Москва: Международные отношения, – 2004. – 288 с.

[26] Чернявский. С.И. Южный Кавказ в планах НАТО // – Международная жизнь, – 1998. – № 9, – с. 102–108.

[27] Кудрявцев, В.Н. Политика НАТО на перемене // – МЕМО, – 1992. – №5

təhlükə kimi görmək meyli var. Müəyyən rusiyalı müəlliflərə görə, NATO strateji konsepsiyalarının əksəriyyəti beynəlxalq hüquq ilə uzlaşmır[28]. NATO-nun tarixi, fəaliyyətinin xüsusiyyətləri, hərbi və siyasi doktrinalarının problemləri beynəlxalq münasibətlər sahəsində rusiyalı ekspertlər tərəfindən ətraflı araşdırılır. Bəzi rusiyalı müəlliflər yazırlar ki, NATO-nun Strateji Konsepsiyasının qəbulundan sonra həll olunmayan əsas sual, bu sənəddə göstərilən ümumi qaydaların tam tətbiq ediləcəyidir. NATO-nun transformasiyası ilə bağlı bir sıra məsələlərdə siyasi böhranlar ortaya çıxdı.[29]

Bir sıra Qərb müəllifləri NATO-nun SSRİ-nin çökməsindən sonra mövcudluğunu davam etdirməsi məsələsini gündəmə gətirmişdilər. Müəyyən olmayan bir gələcəkdən qorunma ehtiyacı NATO-nun başçıları tərəfindən 1991-ci ilin noyabrında qəbul edilmiş yeni konsepsiyasında öz əksini tapdı. Bu konsepsiya diqqətə çatdırırdı ki, “Avropada strateji balansın qorunması” NATO-nun dörd əsas təhlükəsizlik vəzifəsindən biri kimi qalacaqdır.[30]

Qərb müəlliflərindən Zdenek Kriz qeyd edirdi ki, NATO-nun Avropada strateji balansın qorunması missiyası 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra Soyuq müharibənin yararsız qalıqları kimi qiymətləndirilə bilər. NATO-nun əsas vəzifələrinə baxarkən, görmək olur ki, böhran idarəçiliyində fəal iştirak etmək və münaqişələrin qarşısının alınması heç də prioritet deyildir. Buna baxmayaraq, NATO bu sahədə öz əməliyyatları ilə aktiv işə başlamışdır.[31]

Tədqiqat zamanı təkcə müxtəlif müəlliflərin əsərlərindən deyil, həmçinin ilkin mənbələrdən istifadə edilmişdir. Dissertasiya

---

[28] Котляр, В.С. Международное право и современные стратегические концепции США и НАТО / В.С.Котляр, – Казань: Центр инновационных технологий, – 2008. – 479 с.

[29] Кучинская, М.Е. Основные тенденции трансформации НАТО на современном этапе (политические аспекты) // – Проблемы национальной стратегии, – 2011. – № 3 (8), – с. 98–116., с.114

[30] McCalla, R.B. NATO’s Persistence After the Cold War // – International Organization, Cambridge University Press, – vol. 50, № 3, – p. 445–475, p.455

[31] Kriz, Z. NATO after the End of the Cold War A Brief History / Z.Kriz. – Masarykova univerzita, – 2015. – 128 p., p.9

işinin mənbə bazasını dövlət başçılarının, xarici işlər nazirlərinin qarşılıqlı səfərləri zamanı verdikləri bəyanatlar, məruzə və çıxışları təşkil edir. Bu cəhətdən dissertasiyanın yazılmasında Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin məruzələri, çıxışları və işgüzar səfərlərinə dair rəsmi materiallar xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, araşdırılan problemlə bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Xarici İşlər Nazirliyinin cari proseslərlə bağlı verdiyi bəyanatlar, həmçinin NATO-nun hüquqi və rəsmi sənədləri mühüm mənbə kimi geniş istifadə olunmuşdur. Dissertasiyanın yazılması prosesində Azərbaycanda və xaricdə nəşr olunan dövrü mətbuat materiallarından və internet resurslarından da geniş istifadə edilmişdir.

Beləliklə, onu demək olar ki, mövzunun müxtəlif aspektləri bu və ya digər şəkildə yerli və əcnəbi müəlliflər tərəfindən araşdırılmışdır. Qeyd edilən əsərlərdə məsələlərin dəyərləndirilməsində ümumi və fərqli cəhətlər mövcuddur. Ancaq Azərbaycan Respublikasının 1991-2013-cü illərdə NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarında iştirakı mövzusu ayrılıqda dissertasiya mövzusu kimi tədqiqata cəlb edilməmişdir. Tədqiq edilən problemlə, eləcə də onun müxtəlif məqamları ilə bağlı tarixşünaslıq və tədqiqat bazasının zənginləşdirilməsinə ehtiyac duyulur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini 1991-2013-cü illərdə Azərbaycan Respublikasının NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarında iştirakının öyrənilməsi təşkil edir.

Dissertasiyanın predmeti kimi Azərbaycanın xarici siyasətində çoxtərəfli əməkdaşlığa keçid, Azərbaycan və NATO arasında münasibətləri şərtləndirən amillər, bu münasibətlərin ölkəmizin Avro-Atlantika məkanına inteqrasiya prosesinə təsiri, Cənubi Qafqazla, xüsusilə Azərbaycanla bağlı NATO-nun siyasətinin öyrənilməsi, hərbi, təhlükəsizlik aspektlərinin araşdırılması və beynəlxalq terrorçuluğa qarşı mübarizəni göstərmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi 1991-2013-cü illərdə Azərbaycan Respublikasının NATO-

nun strateji proqramları və sülhməramlı əməliyyatlarında iştirakının ölkənin xarici və hərbi quruculuq siyasətində əhəmiyyət dərəcəsinin müəyyən edilməsi və müvafiq tarixi, eləcə də siyasi nəticələrin çıxarılmasıdır. Bu məqsədin həyata keçirilməsi üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

1. SSRİ-nin süqutundan sonra beynəlxalq problemlərin və eləcə də münaqişələrin nizamlanmasında NATO-nun rolunun tədqiq edilməsi və NATO-nun Cənubi Qafqaz siyasətində Azərbaycanın əhəmiyyətinin müəyyənləşdirilməsi;
2. NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarının həyata keçirilməsinin tarixi zərurəti və əhəmiyyətinin müəyyən edilməsi üçün mövcud mənbə bazasında olan məlumatların tədqiq edilməsi;
3. Azərbaycan Respublikasının 1991-2013-cü illər arasında hərbi-siyasi xəttinin formalaşmasına təsir edən daxili və xarici siyasi, hərbi, iqtisadi və sosial amillərin öyrənilməsi və tarixi mirasın əsasında perspektiv fəaliyyət dinamikasının proqnozlaşdırılması;
4. NATO-nun regional proqramlarında və eləcə də sülhməramlı əməliyyatlarında beynəlxalq terrorizmlə mübarizənin səbəb, forma və mexanizmlərinin öyrənilməsi və bu fəaliyyətlərdə Azərbaycanın iştirakının əhəmiyyətinin müəyyənləşdirilməsi;
5. Milli fəaliyyətimizin hərbi-siyasi mahiyyətinin dərk edilməsi və onun komponentlərinin elmi təhlilinin aparılması;
6. Milli maraqlarımıza qarşı ehtimal edilən təhdidlərin qarşısının alınmasında NATO-nun strateji proqram və sülhməramlı əməliyyatlarının istifadə edilə bilmə forma və şəkillərinin müəyyən edilməsi (yəni, Azərbaycan bu proqramlarda iştirak etməklə milli təhlükəsizlik fəaliyyətinin reallaşdırılması üçün hansı imkanlar əldə edə bilmişdir);
7. Terrorizm və mütəşəkkil cinayətlərlə mübarizə probleminin aradan qaldırılmasında NATO ilə əməkdaşlığın real nəticələrinin təhlil edilməsi.

**Tədqiqat metodları.** Müasir dövrdə hər hansı bir tədqiqatın elmi-metodoloji bazası onun obyektiv yazılmasını, düzgün təhlillərin aparılmasını və məntiqi nəticələr əldə edilməsini şərtləndirir. Problemi tədqiq edərkən nəzəri metodlardan istifadə olunmuşdur ki,

bunun da bazasını məhz ümumi elmi metodlar təşkil etmişdir. Bu metodlar tarixi təsvirləri obyektiv vermək üçün əsas olmuşdur. Problemi araşdırarkən tarixşünaslığın müvafiq metodlarından istifadə edilmiş, müxtəlif məsələlərin tədqiqində müqayisəli təhlil və sintez metodları tətbiq edilmiş, başlıca müddəalar əsaslandırılaraq konkret ümumiləşdirmələr aparılmışdır. Tədqiqat işində, o cümlədən, sistemli analiz, tarixi hadisələrə kompleks yanaşma və obyektivlik prinsiplərinə üstünlük verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işi ilə bağlı müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Azərbaycanın xarici siyasəti çoxvektorludur, müstəqildir və milli maraqlara söykənir;
- Azərbaycan-NATO münasibətlərinin qurulması və inkişafı hər iki tərəfin strateji maraqlarına cavab verir;
- NATO-nun Cənubi Qafqaz siyasətinin təminatında strateji proqramlar və sülhməramlı əməliyyatlar əsas əməkdaşlıq alətləridir;
- Azərbaycan-NATO əməkdaşlığının yaranması və inkişafında hərbi-siyasi təşkilatın "Sülh naminə tərəfdaşlıq" proqramı həlledici rola malikdir;
- NATO-nun sülhməramlı əməliyyatlarında iştirak nəticəsində konkret zaman kəsiyində Azərbaycanın bu hərbi-siyasi təşkilatla əməkdaşlığı keyfiyyətcə yeni mərhələyə qalxmışdır;
- Azərbaycan-NATO əməkdaşlığı təkcə əsas deyil, həm də köməkçi proqramlar çərçivəsində qurulmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı, onun inkişaf mərhələləri müxtəlif aspektlərdən tədqiq edilsə də, 1991-2013-cü illərdə Azərbaycan Respublikasının NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarında iştirakı mövzusu dissertasiya işi kimi ilk dəfə tədqiqata cəlb edilmiş və müstəqil şəkildə öyrənilmişdir. Bunun nəticəsində:

1. Azərbaycan Respublikasının xarici siyasətində çoxvektorlu təmaslara keçidi şərtləndirən amillər, onun dinamikası izlənilmiş və bir sıra elmi qənaətlər irəli sürülmüşdür;
2. NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarının reallaşması mexanizmi açılmış, bu prosesdə müəyyən qanunauyğunluqlar üzə çıxarılmışdır;

3. Azərbaycan Respublikasının çoxtərəfli xarici hərbi-siyasi davranışlarının “anatomiyası” təhlil edilmiş, bu istiqamətdə bir sıra proqnoz xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür;
4. Azərbaycan Respublikasının NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulmasını zəruri edən tarixi şərait qiymətləndirilmiş, bu prosesin ölkəmizə gətirəcəyi siyasi və hərbi təhlükəsizlik dividendləri hesablanmışdır;
5. Azərbaycan-NATO münasibətləri regional və enerji təhlükəsizliyi paradiqması xüsusunda da araşdırılmış, bir sıra elmi nəticələr əldə edilmişdir;
6. Azərbaycan Respublikasının NATO-nun sülhməramlı əməliyyatlarında verdiyi töhfənin kəmiyyət və keyfiyyət parametrləri üzə çıxarılmışdır;
7. Azərbaycanın NATO-nun köməkçi proqramlarının realizə olunmasında iştirakının doğurduğu nəticələr analiz edilmiş və müvafiq elmi qənaətlər hasil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından elmi-metodiki milli bazasının formalaşdırılmasında, həmçinin xüsusi xidmət orqanları, hərbi, siyasət və diplomatiya sahələrində çalışan mütəxəssislərin əməli fəaliyyətində və eləcə də, peşəkarlıqlarının artırılmasında istifadə edilə bilər.

Tədqiqat işindən ali məktəblərdə tədris prosesində, xüsusilə beynəlxalq münasibətlər ixtisasının tədrisində vasitə kimi istifadə edilə bilər. Dissertasiya işindən, həmçinin beynəlxalq münasibətlər və tarixlə məşğul olan elmi tədqiqat müəssisələrində, monoqrafiyaların hazırlanmasında istifadə etmək olar. Tədqiqat işi Azərbaycan-NATO münasibətləri ilə bağlı xarici siyasət və beynəlxalq əlaqələrlə məşğul olan dövlət orqanlarının praktiki fəaliyyətində, xüsusilə Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Müdafiə Nazirliyi və digər müvafiq dövlət strukturları üçün maarifləndirici və istiqamətverici material kimi faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas müddəaları və elmi təklifləri müəllifin Azərbaycanda və xaricdə nüfuzlu elmi məcmuələrdə nəşr olunmuş məqalələrində, eləcə də beynəlxalq və respublika səviyyəli konfrans materiallarında öz əksini tapmışdır. Dissertasiya mövzusu üzrə 9 məqalə, 6 tezis nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 33,447, birinci fəsli 76,614, ikinci fəsli 64,898, üçüncü fəsli 56,214, nəticə 19,459 işarədən ibarətdir. Dissertasiya işi ümumilikdə (qısaltmalar, biblioqrafiya və cədvəllər istisna olmaqla) 250,632 şərti işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılmış, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları qeyd olunmuş, həmçinin müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi müəyyənləşdirilmişdir. İşin nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi göstərilmiş, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində beynəlxalq təhlükəsizlik strukturlarının yeri"** adlanır. Bu fəslin "**Azərbaycanın xarici siyasətində çoxtərəfli əməkdaşlığa keçidin zəruriliyi"** adlanan birinci yarımfəslində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, siyasi və iqtisadi münasibətlərdə çoxtərəfli əməkdaşlığın rolu və bu proseslərin Azərbaycan diplomatiyasının inkişafına təsiri araşdırılmışdır. Burada qeyd edilir ki, dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan xarici ölkələrlə və beynəlxalq təşkilatlarla siyasi əlaqələr qurmaq və bu əməkdaşlığın miqyasını genişləndirmək istiqamətində fəaliyyətini genişləndirmişdi. Azərbaycan Respublikasının müasir xarici siyasət prinsipləri Ümummilli Lider Heydər Əliyevin konseptual strategiyası əsasında qurulmuş, sonra isə Cənab Prezident İlham Əliyev tərəfindən uğurla

davam etdirilmişdir. Ümummilli Lider Heydər Əliyevin xüsusilə çoxtərəfli əməkdaşlığın gücləndirilməsində böyük rolu olmuşdur. Bu fəaliyyətin göstəricilərindən biri kimi, 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyinə həsr olunmuş Baş Assambleyanın xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünya dövlətlərinə bu strukturun yüksək kürsüsündən səslənərək, Azərbaycan dövlətinin qlobal məsələlər üzrə prinsipial mövqeyini bəyan etmişdir.

İkinci yarımfəsil "**NATO-nun strateji proqramları və sülhməramlı əməliyyatlarının mahiyyəti"** adlanır. Strateji proqramların qəbul edilməsi və eləcə də onların icra edilmə formalarının müəyyənləşdirilməsi hər bir təşkilatın fəaliyyətində önəm daşıyır. Strategiyalar strateji idarəetmənin əsas bazis elementidir. Strategiyaların müəyyənləşdirilməsi strateji idarəetmənin səviyyəsindən asılıdır. Strateji idarəetmə məqsədlərin formalaşdırılması, taktikanın seçilməsi və strategiyanın hazırlanması üzrə təşkilati fəaliyyətin səviyyəsidir. Strategiya – təşkilatın vəzifəsini həyata keçirməyə və onun məqsədə nail olunmasını təmin etməyə yönələn dəqiqləşdirilmiş, hərtərəfli, kompleks planı nəzərdə tutur. Strateji planlar əməliyyat və inzibati potensialın gücləndirilməsi siyasəti alətləri kimi istifadə olunur.[32] NATO-nun fəaliyyətinin əsasını təşkil edən məsələlərdən biri də məhz strateji proqramların tərtib edilməsidir. Bu proqramlar təşkilatın fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir, həmçinin dünyanın bir çox yerlərində geosiyasi vəziyyətin dəyişməsinə, eləcə də yeni reallıqların yaranmasına səbəb olur. Bu paraqrafda 1991-ci il Strateji Konsepsiyası, 1999-cu ildə həyata keçirilən Vaşinqton zirvə toplantısından sonra qəbul edilən strateji konsepsiyaları şərh edilmişdir. Ümumiyyətlə, NATO 2002-ci il Praqa, 2004-cü il İstanbul, 2006-cı il Riqa, 2008-ci il Buxarest, 2010-cu il Lissabon və 2012-ci il Çikaqo Zirvələrində qəbul edilən strateji sənədlərlə

---

[32] Стратегическое планирование в системе Организации Объединенных Наций Доклад подготовил Таданори Иномата Объединенная инспекционная группа Женева, – 2012 год, с.V, – 76 с., с.5

təhlükəsizlik mühitinə uyğun həll yolları müəyyənləşdirməyə çalışmışdır.[33]

Müasir beynəlxalq münasibətlər sistemində xüsusi rol oynayan məsələlərdən biri də sülhməramlı əməliyyatlardır. Sülhməramlı əməliyyat BMT Baş Assambleyasının qərarı və ya hansısa bir təşkilatın müvafiq rəhbər orqanının qərarı ilə həyata keçirilən sülhün və təhlükəsizliyin bərpası, inkişafın əsaslarının təmin edilməsi əməliyyatına deyilir. [34] İkiqütblü dünya siyasi qaydasının tənəzzülündən sonra dünyanın müxtəlif yerlərində etnik, siyasi, dini mənşəli problemlərin müharibə halını alması sülhməramlı əməliyyatlara olan ehtiyacları artırdı. Belə bir vəziyyətdə NATO-nun sülhməramlı əməliyyatlarına başlaması əhəmiyyət daşıyırdı. NATO artıq 1990-cı illərin əvvəllərindən özünün transformasiya prosesini yaşayarkən sülhməramlı əməliyyatlar üçün bu bazanı formalaşdırmışdı. NATO əməliyyatları ilə bağlı demək lazımdır ki, NATO keçmiş Yuqoslaviya bölgəsində Bosniya-Herseqovina və Kosovo münaqişələrinə müdaxilə edərək humanitar fəlakətlərin yayılmasının qarşısını aldı. Ancaq bu işlərin yalnız insanlıq meyarları ilə edildiyini söyləmək olmaz. NATO-nun Balkanlarda həyata keçirdiyi əməliyyatlar geosiyasi müstəvidə Avro-Atlantika məkanını təhlükələrdən qorumaq və təsir dairəsini genişləndirmək məqsədi daşıyırdı. NATO Avropada Rusiyanın forpostu olan Serbiyanın Qərb dəyərləri əsasında deformasiyasını istəyirdi. Bunun üçün təbii ki, militarist və təcavüzkar ritorikaya, fəaliyyətə malik olan Miloşeviç rejiminin dəyişdirilməsi lazım idi. Bunun başlanğıcı isə Balkanlarda həyata keçirilən NATO sülhməramlı əməliyyatları ilə qoyuldu. Nəticədə məhz bu əməliyyatların reallaşmasının yekunu olaraq bir sıra insanlıq əleyhinə cinayətlərdə təqsirli bilinən şəxslər məhkəmə qarşısına çıxarıldı. Əfqanıstanda gedən proseslərə müdaxilə isə potensial təhlükələrin qarşısının alınması məqsədi daşıyırdı. Əfqanıstan ilə bağlı oxşar cəhətlər İraqda da vardır. Orada həyata

---

[33]Pekşen, H.D. NATO’nun Dönüşümünün Sınırları: Bir Uygulama Vakası Olarak Enerji Güvenliği // – Güvenlik Stratejileri, – 2016. – sayı: 23, – s. 35–69., s.46

[34] Зверев, П.Г. Конфликт на Ближнем Востоке и первая миротворческая операция ООН (ОНВУП): история и современность // – Вестник гуманитарного научного образования, – 2013. – № 11 (37), – с. 11–16.

keçirilən fəaliyyətlərin ümumi mahiyyəti sülhməramlı olsa da, həyata keçirilməsində ciddi problemlər yaşandı. Darfurdakı fəaliyyət isə bunlar qədər əhatəli olmasa da, NATO-nun sülhməramlı müdaxilə arealını genişləndirdi.

NATO-nun sülhməramlı əməliyyatlarının problemli yekunlarından biri ondan ibarət idi ki, əməliyyatların sonunda bir sıra ölkələrdə yerli sosial dayağı olmayan, eyni zamanda, növbəti münaqişələr üçün zəmin hazırlayan şəxslər və qüvvələr hakimiyyətə gətirildi. Bunun bariz nümunəsi İraqda hakimiyyətə gətirilən Maliki idi. Onun fəaliyyəti nəticəsində ölkədə məzhəb zəminində ciddi hərbi toqquşmalar yaşandı və hazırdakı humanitar fəlakətin, terrorun daha da genişlənməsinin əsası qoyuldu.[35]

Dissertasiya işinin ikinci fəsli "**Azərbaycan Respublikasının ölkə xaricində hərbi-siyasi fəaliyyətinin əsasları**" adlanır. Birinci yarımfəsil "**Azərbaycanın çoxtərəfli xarici hərbi-siyasi fəaliyyətinin formalaşması**" adlanır. Azərbaycan Respublikasında hərbi quruculuq fəaliyyətinin təməlləri Ulu öndər Heydər Əliyevin birbaşa adı ilə bağlıdır. Müasir dövrdə ölkə silahlı qüvvələrinin onurğasını təşkil edən zabit heyətinin böyük əksəriyyəti onun tərəfindən qurulmuş hərbi təhsil müəssisələrindən çıxmışdır. Ümummilli Lider 1971-ci ildə böyük səylər nəticəsində general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail olmuşdur. Həmçinin azərbaycanlıların Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində təhsil alması və digər ali hərbi məktəblərə göndərilməsi prosesinə başlanıldı.

Azərbaycan Respublikası dünyanın 34 ölkəsi ilə saziş və memorandumlar imzalamışdır. İkitərəfli hərbi əməkdaşlıq üzrə il ərzində Azərbaycanda və xarici ölkələrdə danışıqlar, məsləhətləşmələr və digər tədbirlər həyata keçirilir. Bu tədbirlərdə silahlı qüvvələrin mindən çox nümayəndəsinin iştirakı təmin edilir. Müvafiq əməkdaşlıq istiqamətlərini tənzimləyən planlar və tədbirlərin illik fəaliyyət proqramları hazırlanarkən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) proqramında qəbul edilmiş

[35] Maliki'nin iktidar hırsı kendi sonunu hazırladı: [Elektron resurs]. URL: http://www.milliyet.com.tr/maliki–nin–iktidar–hirsi–kendi/dunya/detay/1924321/default.htm

öhdəliklərin və Tərəfdaşlıq Məqsədlərinin yerinə yetirilməsi ilə bağlı tədbirlərin təşkilinə diqqət yetirilir. [36] Çünki ölkənin beynəlxalq hərbi əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafında qeyd edilən sənədlərin xüsusi əhəmiyyəti vardır. Azərbaycan beynəlxalq inteqrasiya proseslərinin və eləcə də hərbi münasibətlərin xarakterini nəzərə almaqla yeni təhlükələrin yaranmasının qarşısını alır. Respublikanın ərazi bütövlüyünün bərpası və eləcə də hərbi qüdrətinin gücləndirilməsi istənilən hərbi əməkdaşlıq və tərəfdaşlıq fəaliyyətinin imperatividir.

Azərbaycan Respublikasının xarici hərbi-siyasi fəaliyyətinin həyata keçirilməsində Türkiyə ilə olan münasibətlərin böyük rolu olmuşdur. Azərbaycan və Türkiyə arasında ilk hərbi saziş 1992-ci ildə imzalanmış, Azərbaycanın ilk sülhməramlı hərbi qüvvələri 1999-cu ildə Türkiyə sülhməramlı taburunun tərkibində Kosovoda xidmətə başlamışdır. 2010-cu il avqustun 16-da "Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə imzalanmışdır. Bununla da, hər iki ölkədə əməkdaşlığın daha da genişləndirilməsi üçün hüquqi bazanın təkmilləşdirilməsinin zəruriliyi vurğulanmışdır.[37] Məhz bu dövrdəki əməkdaşlığın nəticəsi özünü 44 günlük Vətən Müharibəsinin gedişində də hiss etdirdi.

İkinci fəslin "**Sülh naminə tərəfdaşlıq" proqramı və Azərbaycan Respublikası**" adlanan ikinci yarımfəslində Azərbaycan Respublikasının Brüssel kofransında iştirakı, "Sülh naminə tərəfdaşlıq" proqramının Çərçivə sənədinin imzalanması və əməkdaşlığın sonrakı illərdə keçdiyi təkamül yolu araşdırılmışdır. 1994-cü il mayın 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil qərargahına səfəri zamanı "Sülh naminə tərəfdaşlıq" proqramının Çərçivə sənədini imzaladı. Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına təhlükəsizlik proseslərinin daha proqnozlaşdırılan olması və

---

[36] İkitərəfli hərbi əməkdaşlıq: [Elektron resurs]. URL: http://mod.gov.az/az/ikiterefli–herbi–emekdasliq–023/

[37] Cabbarlı, H.Q. Azərbaycan və Türkiyənin hərbi əməkdaşlıq və təhlükəsizlik siyasəti: [Elektron resurs]. URL: http://newtimes.az/az/politics/2341/

Avrointeqrasiyanın güclənməsi üçün qoşuldu.[38] Həmçinin NATO ilə praktiki əməkdaşlıq Azərbaycan üçün gələcəkdə təhlükə törədə biləcək qüvvələrin qarşısının alınmasında və iqtisadi tərəfdaşa çevrilməsində mühüm rol oynaya bilərdi.[39] Təbii ki, hər bir dövlətin müəyyən bir proqrama qoşulmaqda məqsədləri vardır. Bu məqsədlərin bir qismi yaxın, bir qismi isə uzunmüddətli xarakterə malik olur. Siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan-NATO əməkdaşlığının əsas istiqamətlərindən biridir.[40] Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm də müəyyən istiqamətlərə böyük önəm vermişdir ki, Azərbaycanın inkişafı, hərbi qüdrətinin artırılması, Avrointeqrasiyanın reallaşması üçün imkanların sayının, forma və şəkillərinin artırılması zərurəti vardı.

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması nəticəsində Dövlət Sərhədi Xidməti - NATO münasibətlərinin əsası qoyuldu. Bu əlaqələr 2001-ci ildən başlayaraq inkişaf etdirilmiş və Sərhəd Qoşunları NATO standartlarına uyğunlaşdırılmışdır. 2003-cü il mart ayının 4-də tarixdə ilk dəfə Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyi mövzusunda NATO Baş Qərargahında 19+1 formatında, 2006-cı il fevral ayının 2-də isə 26+1 formatında tədbirlər keçirilmişdir.[41] Bu, bir daha onu göstərir ki, Azərbaycanın NATO ilə tərəfdaşlıq münasibətlərinin inkişafı əhatəli bir prosesdir və ölkəmizin müvafiq qurumlarının bu münasibətlərə pozitiv şəkildə cəlb edilməsi milli maraqlarımızı əks etdirir.

Bu yarımfəsildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin NATO ilə münasibətlərdə apardığı siyasət də öz əksini

---

[38] Заместитель министра иностранных дел Азербайджана прокомментировал участие Азербайджана в программе НАТО "Партнерство во имя мира", сообщает корреспондент: [Электронный ресурс]. URL: http://www.vesti.az/news/4404

[39] Qasımov, M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) / M.C.Qasımov. – Bakı: Mütərcim, – 1997. – 124 s. s.90

[40] Abdullayev, M. Azərbaycan–NATO: Uğurlu əməkdaşlıq modeli // Yeni Azərbaycan. – 2014, 25 iyun. №111, – s.8

[41] Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin beynəlxalq əlaqələri: [Elektron resurs]. URL: http://www.dsx.gov.az/beynelxalq_elaqe

tapmışdır. İlham Əliyevin Belçika Krallığına səfəri Azərbaycan-NATO münasibətlərinin yeni mərhələsinin başlanğıcını qoymuşdur. Belə ki, 2006-cı il noyabrın 8-də Brüsseldə - NATO-nun qərargahında hərbi-siyasi qurumun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO ilə əməkdaşlığın uğurla inkişaf etdiyini söyləyərək "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət planı" çərçivəsində həyata keçirilən tədbirlərin bunun yaxşı nümunəsi olduğunu qeyd etmiş və bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirmişdir. Hər il Fərdi Tərəfdaşlıq Proqramının əhatə dairəsini genişləndirən Azərbaycan 2007-ci ildə "Sülh naminə tərəfdaşlıq" proqramının 250-dən çox tədbirində iştirak etmişdir.

Bu fəslin "**NATO-nun Cənubi Qafqaz strategiyasında və enerji təhlükəsizliyi məsələlərində Azərbaycan Respublikasının iştirakı**" adlandırılan son yarımfəslində Cənubi Qafqazın strateji nöqteyi-nəzərdən NATO üçün əhəmiyyətli regionlardan biri olması vurğulanmış, Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığında enerji təhlükəsizliyi məsələləri də bu əməkdaşlığın bir hissəsi kimi təhlil edilmişdir. Cənubi Qafqazda qarşılıqlı dialoqu təbliğ etməyin və təhlükəsizliyi inkişaf etdirməyin Alyans üçün vacibliyinin səbəblərindən biri hazırda dünyada mövcud olan ciddi təhlükəsizlik hədələrinin – terrorizm, kütləvi qırğın silahlarının yayılması, tənəzzül etmiş dövlətlər və regional münaqişələr – sərhədləri aşması və onların yalnız birgə beynəlxalq əməkdaşlıq vasitəsilə həllinin mümkün olmasıdır. Cənubi Qafqaz respublikaları da öz növbəsində, NATO ilə əməkdaşlıqda maraqlıdırlar. Azərbaycan və Gürcüstandan fərqli olaraq, Ermənistan sadəcə digər Cənubi Qafqaz respublikalarından izolyasiya olunmamaq üçün NATO ilə əməkdaşlıq edir. Cənubi Qafqaz respublikalarını NATO ilə əməkdaşlığa sövq edən əsas səbəblərdən biri kimi region dövlətlərinin öz təhlükəsizlik problemlərinin həllində NATO-ya ümid bəsləmələrini qeyd etmək olar. Onlar ərazilərindəki silahlı münaqişələrin həllinə NATO-nun müdaxilə edəcəyinə ümid edirlər.

Həm Qafqaz dövlətlərini, həm də müttəfiqləri narahat edən digər bir məsələ enerji təhlükəsizliyidir. Bu bölgə əsas neft və qaz tranzit marşrutlarının üzərində yerləşir və Azərbaycan Xəzər Dənizi

hövzəsində mühüm neft və qaz yataqlarına malikdir. Bu regionda təhlükəsizliyin gücləndirilməsi həm öz enerji ehtiyatlarını və təchizat marşrutlarını müxtəlifləşdirmək niyyətində olan enerji idxal edən ölkələrin, həm də öz sənayesi və boru kəməri infrastrukturunun təhlükəsizliyinə təminat verilməsinə ehtiyacı olan enerji ixrac edən və tranzit ölkələrin maraq dairəsindədir.

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatlarının getdikcə Qərb bazarına daha çox çıxarılması NATO-nun da maraqları daxilində olmuşdur. Çünki bununla NATO təşkilatının aparıcı dövlətləri olan Avropa ölkələrinin Rusiyadan asılılığı azalır. NATO-nun Cənubi Qafqazda fəallaşmasının başlıca amillərindən biri də Cənubi Qafqazda Azərbaycanın lider dövlətə çevrilməsidir. Bunun da səbəblərindən biri NATO ölkəsi olan Türkiyənin Azərbaycan ilə sıx münasibətləridir. NATO, eyni zamanda, Cənubi Qafqazda fəallaşmaqla Rusiyanın təsir dairəsini məhdudlaşdırmaq, İranın ətrafındakı halqanı bir qədər də möhkəmləndirmək istəyir.

Dissertasiyanın üçüncü fəsli "**Azərbaycan Respublikasının NATO-nun sülhməramlı əməliyyatlarında iştirakı**" adlanır. "**NATO-nun sülhməramlı əməliyyatlarında Azərbaycan Respublikasının yeri**" adlanan birinci yarımfəslində Azərbaycan hərbi qüvvələrinin Kosovoda, Əfqanıstanda və İraqda həyata keçirilən sülhməramlı əməliyyatlarda fəal iştirakı araşdırılmışdır. Azərbaycan Respublikası silahlı qüvvələrinin dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatlarda iştirak etməsi ölkəmizin beynəlxalq əhəmiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Silahlı qüvvələr fəaliyyəti zamanı həm təcrübə mübadiləsi həyata keçirmiş, həm də milli ordumuzun mövcud təcrübəsini beynəlxalq əlaqələrdə istifadə etmişlər. 1999-cu ilin sentyabr ayından 2008-ci ilin mart ayına qədər Azərbaycan Respublikası silahlı qüvvələrinin sülhməramlı tağımı 34 nəfər şəxsi heyətlə (32 əsgər, 1 gizir və 1 zabit) Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə əməliyyatlarda iştirak etmişdir. Azərbaycan tağımı Türkiyə taburunun 4-cü mexanikləşdirilmiş piyada bölüyünün (qərargahı: Draqaş) tərkibində Draqaş şəhərində xidmət aparırdı və tağımın bilavasitə cavabdeh olduğu və növbə apardığı Brod yaşayış məntəqəsi idi. Bu müddət ərzində Kosovoda 362 nəfər hərbi

qulluqçu iştirak etmişdir (345 əsgər, 7 gizir, 10 zabit). 2008-ci ilin aprel ayında Kosovonun müstəqilliyinin təktərəfli elan olunması ilə əlaqədar Azərbaycan tağımı Milli Məclisin qərarı əsasında geri çağırılmışdır.[42]

Azərbaycan Respublikası silahlı qüvvələrinin sülhməramlı bölüyü 15 avqust 2003-cü ildən 7 dekabr 2008-ciilədək 151 nəfər şəxsi heyətlə İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərmişdir. Azərbaycan parlamentinin qərarı ilə missiyasını başa vuran İraqdakı sülhməramlı qüvvələri Əl-Anbar bölgəsində təşkil olunan rəsmi mərasimlə bu ölkədən yola salınmışdır.

Azərbaycan silahlı qüvvələrinin 22 nəfərlik sülhməramlı tağımı 20 noyabr 2002-ci il tarixindən Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri tərkibində fəaliyyət göstərməyə başlamış, 2008-ci il yanvarın 15-də onların sayı artırılaraq bölük səviyyəsinə çatdırılmış, 2009-cu il oktyabrın 2-də isə Milli Məclis sülhməramlı kontingentin 2 dəfə artırılması barədə qərar qəbul edərək onların sayı 90 nəfərə çatdırılmışdır. 2010-cu il oktyabrın 5-də isə NATO-nun Əfqanıstanda keçirdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üzrə əməliyyatlarında ölkəmizin sülhməramlı qüvvələrinin töhfəsinin artırılması məqsədilə ora əlavə olaraq 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit göndərilmişdir. Əlavə edək ki, sülhməramlılarımız Əfqanıstandakı fəaliyyətini 2009-cu il fevralın 19-dan etibarən Türkiyə taburu tərkibində davam etdirmişdir. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin mərkəzi silah-sursat anbarının təhlükəsizliyini qorumuş və patrul xidmətini həyata keçirmişdir.[43]

Azərbaycan Respublikası NATO-nun terrorizmə qarşı apardığı mübarizədə qabaqcıl yer tutur və tərəfdaş ölkələr arasında bu sahədə öz fəallığı ilə seçilir. Lakin NATO ilə Azərbaycanın əməkdaşlığı

---

[42] Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı: [Elektron resurs]. URL: http://mod.gov.az/az/nato–ile–emekdasliq–028/

[43] Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edən Azərbaycan hərbçilərinin sayı açıqlanıb: [Elektron resurs]. – Mart 26, 2014. URL: http://az.trend.az/azerbaijan/politics/2256130.html

təkcə hərbi sahə ilə məhdudlaşmır. Elm, ekoloji və humanitar sahələrdə əməkdaşlıq da ölkəmizin NATO ilə sıx işləməsinə səbəb olmuşdur. 1995-ci ilin iyun ayında NATO-nun Avropa qüvvələri komandiri müavini general C.Makkenzi Azərbaycana səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşündə İttifaqın Azərbaycan silahlı qüvvələrinin inkişafında mühüm rol oynaya biləcəyini söyləmişdir. Bu görüşdə NATO nümayəndəsi ilk dəfə olaraq, Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin və regionda sülhün bərqərar olmasının vacibliyini bildirmişdir. C.Makkenzi NATO-nun Azərbaycan silahlı qüvvələrinin yaradılması və müasir tələblərə cavab verməsində əhəmiyyətli rol oynaya biləcəyini ifadə etmişdir.[44] Azərbaycan NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktiki tədbirləri ilə də təsdiq edir.

Azərbaycan Respublikası silahlı qüvvələrinin hərbi birləşmələrinin tədqiq edilən dövrdə NATO-nun sülhməramlı əməliyyatlarında iştirakı müəyyən mənfəətlərin əldə edilməsinə kömək etmişdir. Ölkə silahlı qüvvələrinin birbaşa NATO komandanlığının fəaliyyəti ilə tanış olmasına, hərbi-strateji və taktiki qərarvermə mexanizmlərinin formalaşmasına müsbət təsir etmişdir. Bunun müqabilində tərəfdaşlıq çərçivəsində NATO müdafiə sahəsində Azərbaycan Respublikasında həyata keçirilən hərbi islahatları dəstəkləmiş, müasir təhlükəsizlik problemlərinə cavab verən və çoxmillətli əməliyyatlarda iştirak etməyə imkan verən müasir silahlı qüvvələr yaranmasına kömək etmişdir. Azərbaycan hərbçiləri üçün qeyri-ənənəvi relyefdə və mühitdə qarşıya qoyulmuş məqsədlərin reallaşdırılması üçün təcrübə əldə edilmiş, Azərbaycan silahlı qüvvələrinin tərkibində ezam edilmiş zabitlər vasitəsilə Balkanlarda, Mərkəzi Asiya və Yaxın Şərqdə vəziyyətlə tanış olmaq imkanı əldə edilmişdir. Sülhməramlı əməliyyatlarda iştirak, eyni zamanda, təşkilata birbaşa Azərbaycanın hərbi inkişaf reallığını göstərmişdir.

İkinci yarıımfəsil "**NATO-nun köməkçi proqramları və Azərbaycan**" adlanır. Azərbaycanın NATO ilə əməkdaşlığı

---

[44] Азербайджан–НАТО: [Электронный ресурс]. URL: http://lib.aliyev–heritage.org/ru/7198785.html

respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilə bilər. Əvvəla, Azərbaycan dövləti xarici siyasətində universal və regional beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda və dünya iqtisadi, siyasi və təhlükəsizlik sisteminə inteqrasiyada maraqlıdır və bu səbəbdən çoxtərəfli diplomatiya siyasətinə üstünlük verir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olması dünya birliyinin müstəqillik və təhlükəsizlik problemlərinin həllinə daha fəal şəkildə cəlb edilməsini şərtləndirir. [45] Bu üç əsas amil Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına daxil olmasında əsas rol oynamışdır. Şimali Atlantika bloku ilə münasibətlərin Azərbaycan Respublikası üçün əhəmiyyəti bir də ona görədir ki, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm NATO-nun müxtəlif struktur və institutları vasitəsi ilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də quruma daxil olan ölkələrlə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanmışdır.

Azərbaycan - NATO münasibətləri, əsasən, aşağıdakı plan və istiqamətlər üzrə nizama salınır ki, bunlar da NATO ilə əməkdaşlığın özəyini təşkil edir:

- Sülh naminə tərəfdaşlıq (SNT);
- Fərdi tərəfdaşlıq proqramı (FTP);
- Proseslərin planlaşdırılması və analizi proqramı (PAP);
- Fərdi tərəfdaşlıq üzrə fəaliyyət planı (FTƏP);
- Əməliyyat imkanları konsepsiyası (ƏİK);
- Müdafiə təsisatlarının qurulması üzrə tərəfdaşlığın əməliyyat planı;
- Sülh naminə tərəfdaşlığın qərargah elementi;
- Terrorizm əleyhinə tərəfdaşlıq fəaliyyət planı;
- Sülh və təhlükəsizlik naminə elm proqramı;
- Müdafiə təhsilinin genişlənməsi proqramı.

[45] Eyvazov, E. NATO–nun genişleme politikası ve Azerbaycan / E.Eyvazov. – 207 s., s.122-123

1999-2013-cü illərdə Azərbaycan NATO ilə demokratik təsisat və hərbi islahatlar sahəsində fəal şəkildə əməkdaşlıq edərək, bir çox digər sahələrdə praktiki əməkdaşlığı inkişaf etdirmişlər. Azərbaycan ilə NATO arasında əməkdaşlığın digər əsas məqsədi sülhməramlı və böhranların idarə olunması əməliyyatlarında ölkənin silahlı qüvvələrinin NATO ölkələrinin silahlı qüvvələri ilə birgə işləməsi imkanlarının gücləndirilməsindən ibarət olmuşdur.[46] Azərbaycanın NATO ilə inteqrasiya əlaqələrinin mühüm mərhələsini Azərbaycan Prezidenti və NATO rəhbərliyi tərəfindən NATO ilə tərəfdaşlıq barədə fərdi fəaliyyət planının təsdiqlənməsi təşkil edir. Bu, Avro-Atlantik strukturlarla səmərəli qarşılıqlı əlaqələrə təkan vermişdir. Azərbaycanın NATO ilə tərəfdaşlığı dəqiq ifadə olunmuş ictimai maraqlara söykənir. Azərbaycanda NATO həftələri ilə bağlı ictimai-siyasi tədbirlər keçirilmiş, NATO-nun Azərbaycanda beynəlxalq məktəbi yaradılmışdır.

Tədqiq edilən dövrdə Azərbaycan Avro-Atlantik norma və standartlarını tətbiq etməklə bu birliyin institutları ilə yaxın əlaqələr qurmağa çalışmış və həmçinin NATO ilə tərəfdaşlığı gələcək Avro-Atlantik təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, Alyans ilə inteqrasiya tərəfdaşlığına səy göstərmişdir. NATO ilə Azərbaycan arasındakı əməkdaşlığın miqyası ölkənin islahatları davam etdirmək və mövcud demokratik institutları möhkəmləndirmək niyyətindən son dərəcə asılıdır. Müdafiə və təhlükəsizlik sahəsində islahatların aparılması Azərbaycanın inkişafı, o cümlədən Avro-Atlantik standartlara çatmaq və bu əməkdaşlığı genişləndirmək məqsədi üçün mühüm əhəmiyyət kəsb edir. Bu sahədə NATO və onun fərdi müttəfiq ölkələri kifayət qədər təcrübəyə malikdirlər ki, bundan da Azərbaycan yararlana bilər. Prioritet məsələlərdən biri silahlı qüvvələr üzərində demokratik nəzarətin yaradılmasından ibarətdir. NATO, həmçinin Azərbaycanda aparılan geniş demokratik və təsisat islahatlarının proseslərini dəstəkləyir və Azərbaycanın hərbi təlim müəssisələri və təlim üsulları üzrə məsləhətləşmələr aparır. NATO və Azərbaycan Planlaşdırma və Analiz Prosesi (PAP) çərçivəsində və bununla yanaşı, silahlı qüvvələrin xidməti bölməsinin komanda,

---

[46]Azərbaycan–NATO: Tərəfdaşlıqdan başlanan yol. (1994–2009). Heydər Əliyev irsini araşdırma mərkəzi. – Bakı, – 2009, – 340 s., s.19

nəzarət imkanları və arxa cəbhənin təkmilləşdirilməsi sahəsində də fəal əməkdaşlıq edirlər.[47]

**Dissertasiyanın nəticə hissəsində** tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmışdır:

- Azərbaycan NATO ilə əməkdaşlığının ilkin mərhələsində zəif tərəfdaş kimi başlasa da, yekunda ölkə rəhbərliyinin apardığı uzaqgörən siyasi kursu ilə bu qurumun ciddi və özünəməxsus mövqeyi, rolu olan bir tərəfdaşına çevrilə bilmişdir;
- Azərbaycan-NATO əməkdaşlığı ölkə silahlı qüvvələrinin birbaşa NATO komandanlığının fəaliyyəti ilə tanış olmasına, hərbi strateji və taktiki qərarvermə mexanizmlərinin formalaşmasına müsbət təsir etmiş, hərbi quruculuq işlərinin Qərb standartlarına unifikasiyası prosesi həyata keçirilmişdir. Bunun müqabilində tərəfdaşlıq çərçivəsində NATO müdafiə sahəsində Azərbaycan Respublikasında həyata keçirilən hərbi islahatları dəstəkləmiş, müasir təhlükəsizlik problemlərinə cavab verən və çoxmillətli əməliyyatlarda iştirak etməyə imkan verən müasir silahlı qüvvələr yaradılmasına kömək etmişdir;
- "Sülh naminə tərəfdaşlıq" proqramı milli maraqların təmin olunması nöqteyi-nəzərindən Azərbaycan üçün əhəmiyyətli olmuş və ölkənin milli təhlükəsizlik konsepsiyasının əsas elementlərindən birinə çevrilmişdir. Proqram, həmçinin, yalnız ölkənin Müdafiə Nazirliyinin deyil, eyni zamanda digər hərbiləşmiş qurumların, nazirliklərin və müvafiq orqanların beynəlxalq əməkdaşlığına müsbət təsir etmişdir;
- Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığının əsas məqsəd və prinsipləri qarşılıqlı razılaşma əsasında tərtib edilmiş və ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasını yaradan kompleks sənədlərə əsaslanmışdır. Məhz bu baza əsasında Azərbaycan Alyansın sülhməramlı əməliyyatlarında iştirak etmiş, hərbi quruculuq strategiyasını formalaşdırmış və NATO nümunəsində nizami ordunun yaradılmasını həyata keçirmişdir;
- Qeyd olunan dövrdə Azərbaycan NATO ilə strateji proqramlar və tərəfdaşlıq münasibətlərində Qərb dəyərlər sisteminə

[47]Hacıyev, Ş. Azərbaycan– NATO əlaqələri. // – Bakı: Strateji təhlil (SAM), – 2010. №1(1), – s. 104–115., s.107

meyl etdiyini nümayiş etdirmiş, xüsusilə də Qərbi Avropanın təhlükəsizliyi üçün rolunu təsdiqləmişdir;

- Azərbaycan Respublikası silahlı qüvvələrinin birləşmələri, eyni zamanda, NATO-nun Kosovo, İraq və Əfqanıstanda apardığı sülhməramlı əməliyyatlarında iştirak etməklə özünü dünyaya sülhsevər, dinc birgəyaşayış normalarına üstünlük verən və beynəlxalq terrorizmə qarşı mübarizədə mühüm rol oynayan dövlət olduğunu sübut etmişdir.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

**1.** Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiyası // "Azərbaycanşünaslığın aktual problemləri" V beynəlxalq elmi konfransı, – Bakı: Bakı Slavyan Universiteti, – 05 – 07 may, – 2014, – s. 184-187.

**2.** Azərbaycan-NATO əmkədaşlığında strateji proqramların rolu // – Bakı: Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, – 2014. xüsusi buraxılış, – s. 223-229.

**3.** Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və NATO // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, – 7 – 8 aprel, – 2015. II cild, – s. 126-128.

**4.** Azərbaycan Respublikası-NATO əməkdaşlığı çərçivəsində yeni mərhələ // Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransı, – Bakı: Qafqaz Universiteti, – 17 – 18 aprel, – 2015. I kitab, – s. 749-751.

**5.** NATO-nun Cənubi Qafqaz strategiyası və Azərbaycan Respublikası // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2015. № 4, – s. 189-195.

**6.** NATO-nun Çikaqo sammiti və Azərbaycan // Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransı, – Bakı: Qafqaz Universiteti, – 29 – 30 aprel, – 2016. I kitab, – s. 768-769.

**7.** Azərbaycan-NATO əməkdaşlığının yaradılması və inkişafında Heydər Əliyevin rolu // Azərbaycan Respublikası Təhsil

Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Dövlət Neft Akademiyası, – 24 – 25 may, – 2016. I cild, – s. 378-381.

**8.** Целевая оценка деятельности НАТО (1991–2010–е гг.) // – Киев: Гілея, Науковий вісник збірник наукових праць, – 2016. Випуск 118 (№3), – с. 142-147.

**9.** NATO-nun sülhməramlı əməliyyatlarında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi birləşmələrinin rolu // – Bakı: Geostrategiya, – 2017. № 01 (37), – s. 65-68.

**10.** Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramında iştirakı // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Elmi əsərlər, – 2017. 63-cü cild, – s. 158-169.

**11.** Историко-политические основы нового курса НАТО в 90-х гг. XX века // Мультидисциплинарный научный журнал «Архивариус» сборник научных публикаций. XIX международная научно практическая конференция «Наука в современном мире», – Киев, – 20 апреля, – 2017 г. 1 часть, – с. 17-21.

**12.** Azərbaycan-NATO sülhməramlı tərəfdaşlıq fəaliyyətinin tarixi təhlili (1999-2013-cü illər) // – Lənkəran: Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər, Humanitar elmlər, – 2018. № 2, – s. 37-43.

**13.** NATO-da metodoloji innovasiyanın zəmini // – Bakı: Geostrategiya, – 2019. № 06 (54), – s. 87-92.

**14.** NATO-nun Cənubi Qafqaz rəqibləri Rusiya və İranın regional siyasətinin ümumi təhlili // – Bakı: Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, – 2021. № 2, – s. 187-191.

**15.** NATO peacekeeping operations // – Тошкент: ЎзМУ хабарлари вестник НУУз, Мирзо Улуғбек Номидаги Ўзбекистон Миллий Университети илмий журнали, – 2021. № 1/5/1, – p. 4-8.

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 13⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1073, H.Cavid prospekti 115,

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.10.2024
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 48 247 işarə
Tiraj: 100